# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EFFEKTİNVEST" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli,təmin edilməmiş, sənədsiz, adlı istiqrazların

# EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

**BƏYANAT**

**Biz, aşağıda imza edənlər,**

**1.** Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

**2.** Bokt "Effektinvest" MMC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 500 (beş yüz) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"Bokt "Effektinvest" MMC-nin Direktoru:**

Cavadov Murad Şirin oğlu ________________

Tarix: 15.03.2024

**Bokt "Effektinvest" MMC -nin Baş mühasibi:**

Atakişiyev Mikayıl Sənan oğlu ________________

Tarix: 15.03.2024

## MÜNDƏRİCAT


Bəyanat....2
Xülasə....4
Xəbərdarlıq....4
Emitent haqqında məlumat....4
Qiymətli kağızlar haqqında məlumat....7
Risk faktorları....8
Təklif....9
İstiqrazların emitenti barədə məlumat....11
Emitentin auditorları barədə məlumat....11
Seçilmiş maliyyə məlumatları....11
Emitent barədə məlumat....12
Emitentin biznesinin icmalı....13
Digər təşkilatlarda iştirak....14
Tendensiyalar haqqında məlumat....14
Gəlir proqnozu....15
Emitentin idarəetmə və nəzarət orqanları....15
İdarə heyətinin işgüzar praktikası....18
Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan payçıları....18
Emitentin maliyyə məlumatları....19
İstiqrazlar barədə tələb olunan məlumat....24
İstiqrazlar barədə məlumat....25
Təklifin şərtləri....28
Ticarətə buraxılma və onun tənzimlənməsi....30
Kredit reytinqləri....30

# XÜLASƏ

## 1. Xəbərdarlıq

1.1 Bu sənəd Emissiya prospektinin giriş hissəsidir.

1.2 Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlara (bundan sonra İstiqrazlar) investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

1.3 Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya istiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent haqqında məlumat

2.1. **Emitentin tam adı:** Bank Olmayan Kredit Təşkilatı "EFfektinvest" Məhdud Məsuliyyətli Cəmiyyəti – bundan sonra BOKT adlandırılacaq.

2.2. **Emitentin qısaldılmış adı:** BOKT "Effektinvest" MMC.

2.3. **Emitentin dövlət qeydiyyat nömrəsi və tarixi:** VÖEN-1402523041, 16.05.2013-cü il

2.4. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Bakı şəhəri, Yasamal rayonu, HəsənBəy Zərdabi küç., 589-cü məhəllə, ev 74, Məhdud Məsuliyyətli Cəmiyyət, Azərbaycan Respublikası.

2.5. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** BOKT fəaliyyət göstərdiyi maliyyə bazarı seqmentdə uzun müddətli təcrübəyə, müştəri portfelinə, tam peşəkar işçi heyətinə malikdir. Hal-hazırda BOKT yalnız manatda kredit verir və bu səbəbdən valyuta riski yaratmır. Kreditlərin məbləğinin kiçik, faizləri isə orta bazar faizlərindən bir qədər yüksək olması BOKT-un ödəmə qabiliyyətinə müsbət təsir edən faktorlardandır. BOKT həm devalvasiya zamanı, həm də pandemiya zamanı problemləri uğurla dəf etmiş, kredit portfelinin yığımında müsbət nəticələr əldə etmişdir. Yaranmış vəziyyətlə bağlı problemlərin həll olunması ilə yanaşı BOKT yeni kreditlərin verilməsinə davam etmiş, hazırda portfelin, aktivlərin və mənfəətin artım tendesiyasını əldə etmişdir. BOKT kredit portfelinin keyfiyyət göstəriciləri yüksəkdir və risklər qənaətbəxş idarə olunur. Şirkət strateji olaraq, kredit portfelinin diversifikasiya tədbirlərini həyata keçirir ki, bu da kredit portfelinin risksiz və keyfiyyətli idarə olunması üçün önəmlidir.

2.6. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** BOKT-un heç bir hüquqi şəxsin kapitalında payı yoxdur. Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

2.7. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil

2.8. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Maliyyə hesabatları emitentin maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə

Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**2.9. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:**

| Azərbaycan manatı ilə | 31.12.21 | 31.12.22 | 31.12.23 Audit edilməyib |
|---|---|---|---|
| Mənfəət/Zərər vergidən əvvəl | 4,172.36 | 2,863.75 | 227,030.00 |
| Mənfəət/Zərər vergidən sonra | 3,337.89 | 2,291.00 | 181,620.00 |
| Aktivlər | | | |
| Cəmi aktivlər | 1,497,244.83 | 1,460,749.96 | 2,169,830.00 |
| Cəmi öhdəliklər | 659,881.47 | 624,189.04 | 988,210.00 |
| Kapital | | | |
| Nizamnamə kapitalı | 810,000.00 | 810,000.00 | 1,000,000.00 |
| Kredit Portfeli | 965,115.72 | 968,387.90 | 1,391,990.00 |
| Pul vəsaiti | 106.59 | 609.23 | 8,620.00 |
| Cəmi Kapital | 837,363.36 | 836,560.92 | 1,181,620.00 |

09.02.23 tarixli , 02/2022 saylı Təsisçilərin ümumi yığıncağının protokoluna əsasən təsisçi Niftiyev Zülfüqar Ağagül oğlunun 485000 manat olan və təsisçi Hacıyeva İradə Gülmalı qızının 310000 manat olan təsis payları geri ödənilmişdir. Həmin protokola əsasən isə cəmiyyətə yeni təsisçilər - Cavadov Şirin İlahəddin oğlu - təsis payı 475000 azn və Köçərli Fərid Fəxrəddin oğlu - təsis payı 320000 azn cəlb olunmuşdur.

Sonrakı dövrlərdə təsisçi Köçərli Fərid Fəxrəddin oğlu tərəfindən 12.05.23 tarixdə 50000 azn, 19.05.23 tarixdə 40000 azn, 31.07.23 tarixdə 25000 azn və 31.07.23 tarixdə isə 75000 azn vəsait cəlb edilərək təsisçinin ümumi təsis payı 510 000 azn-ə çatdırılmışdır. Müvafiq olaraq cəmiyyətin kapitalı 1000000 azn-ə çatdırılmışdır.

2023-cü ildə BOKT-un kredit portfeli 423,602.10 azn artırılmışdır. Kredit portfelində olan gecikən kreditlər ödəniş edilərək həcmi 256 304.83 azn azaldılmışdır.

**2.10. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:** Emitentin ödəmə qabiliyyətinə təsir edən əsas faktor – kredit portfelinin keyfiyyətinin qənaətbəxş olmasıdır. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 30.12.2021 | 30.12.2022 | 30.12.2023 Audit edilməyib |
|---|---|---|---|
| PAR>30 (məbləğ) | 962 590.00 | 772 314.83 | 516 010,00 |
| PAR>30/Portfel (%) | 99.74% | 79.75% | 37.07% |

Cəlb olunmuş vəsaitlər.

| Az.Res.Mərkəzi bankından alınmış kreditlər | | | |
|---|---|---|---|
| | 31-12-23 | 31-12-22 | 31-12-21 Audit edilməyib |
| Müddət | 5 il | 5 il | 5 il |
| İllik % dərəcəsi | 0,10% | 0,10% | 0,10% |
| Məbləğ | 18,345.00 | 36,690.00 | 55,040.00 |
| AKİA-dan alınmış kreditlər | | | |
| | 31-12-23 | 31-dek-22 | 31-12-21 Audit edilməyib |
| Müddət | 5 il | 5 il | 5 il |
| İllik % dərəcəsi | 2% | 2% | 2% |
| Məbləğ | 410,980.00 | 519,930.00 | 548,930.00 |
| Borc müqavilələri | | | |
| | 31-12-23 | 31-12-22 | 31-12-21 Audit edilməyib |
| Müddət | müddətsiz | müddətsiz | müddətsiz |
| İllik % dərəcəsi | uçot % +2% | uçot % +2% | uçot % +2% |
| Məbləğ | 487,000.00 | 0,00 | 0,00 |

**2.11. Emitentin əsas fəaliyyətlərinin təsviri**: BOKT qüvvədə olan qanunvericiliyə və Mərkəzi bankın hüquqi-normativ aktlarına əsasən Respublika daxilində maliyyə bazarında maliyyə alətlərindən olan uzun müddətli və qısamüddətli lizinq və kreditlərin verilməsi ilə məşğuldur. BOKT aşağıdakı fəaliyyət növlərini həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq)
- Lizinq
- Veksellerin uçotu
- Qarantiyanın verilməsi
- Sığorta agenti xidmətinin göstərilməsi

- Borc alanla, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

2.12. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:** Emitentin Ali idarəetmə orqanı onun payçıların Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Emitentin fəaliyyətinə nəzarət Ümumi Yığıncaq tərəfindən təyin edilmiş Müşahidə Şurası tərəfindən həyata keçirilir.

## 3. Qiymətli kağızlar haqqında məlumat.

3.1. **İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

3.2. **İstiqrazların valyutası:**Azərbaycan manatı (Azn);

3.3. **Tədavül müddəti:** 5 il.

3.4. **İstiqrazların təsbit olunan məhdudiyyətlər:** Məhdudiyyət mövcud deyil

3.5. **İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdikdə İstiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində İstiqrazların nominal dəyərindən illik 14% (on dörd faiz) həcmində faiz almaq;
- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real tühlükəyə səbəb olan onun yenidən təşkili barəda qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

3.6. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 14 (on dörd) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər ay nağdsız qaydada ödənilir. Sonuncu faiz ödənişi tədavül müddətinin sonunda istiqrazların nominal dəyəri ilə birlikdə ödəniləcəkdir.

3.7. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

3.8. **İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri alınması nəzərdə tutulmur.

3.9. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

Burada

TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir istiqrazın nominal dəyəri (1000 (bir min) AZN)
D – İstiqrazların illik faiz dərəcəsi ( 14 (on dörd) )
G – İstiqrazlar üzrə faizlərin ödəniş müddəti (30 gün)
Göstərilmiş düstura əsasən hər bir istiqraz üzrə hər ay ödəniləcək faizlərin məbləği 11.66 (on bir manat altmış altı qəpik) AZN təşkil edir.

**3.10. İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.11. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.12. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Emissiya prospekti qeydiyyata alınıb, buraxılış dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "BTB Bank" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.Effektinvest.az) açıqlanır.

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Valyuta riski – valyuta məzənnəsinin əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;

- Faiz riski – faiz dərəcələrinin dəyişməsi ilə bağlı yarana biləcək itki riskidir.
- İnflyasiya riski – pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Likvidlik riski – müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Əməliyyat riski – daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Hesablaşma və kontragent riski – hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- Kredit riski – borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri.
- Təbii risk – insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.)

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** Kəskin devalivasiyanın olması - müştərilərin öhdəliklərinin kəskin artması və ödəmə qabiliyyətinin kəskin zəifləməsi, maliyyə bazarında durğunluğun yaşanması və pul axınının azalması əsas risk faktorlarındandır. Habelə təbii fəlakətlərin baş verməsi (fors-major hallar), qlobal və yerli rəqabət, qanunvericilikdə emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən dəyişikliklər də risk faktorları hesab olunur. Emitent dövrü olaraq bu riskləri qiymətləndirmək və minimallaşdırmaq üçün lazım olan tədbirləri həyata keçirir. Emitentin valyuta öhdəlikləri yoxdur.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyadan əldə ediləcək vəsait Emitentin gələcək fəaliyyətinin dəstəklənməsinə, o cümlədən Emitentin maliyyələşdirilməsinə xidmət edəcək. Həmçinin vəsait BOKT-un kredit protfelinin dinamik inkişafına, müvafiq olaraq mənfəətin artırılmasına və yeni filialın açılmasına hədəflənir.

**5.2. Təklifin şərtlərinin təsviri:** Yerləşdirmə, emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra və istiqrazlar "Bakı Fond Birjası" QSC-də ticarətə buraxıldıqdan sonra başlanılacaq. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin klirinq agenti kimi çıxış edən BTB BANK ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. İstiqrazların yerləşdirməsinə başlanması tarixinə ən azı 2 iş günü qalmış qiymətli kağızların yerləşdirilməsinin baş tutacağı tarix və hərracın keçirilməsi şərtləri "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin (www.assistfinance.az) saytında investorlara açıqlanacaqdır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşması mövcud deyil. Emissiyada emitentə aidiyyatı olan və digər əlaqəli şəxslər iştirak etmir.

**5.3.1** "Bakı Fond Birjası" QSC. Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**5.3.2.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən Mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

**5.3.3.** Anderrayter - 15.02.2018-ci il tarixində dövlət qeytiyyatına alınmış Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkəti olan "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti. Anderrayterin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək.
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.
- Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edildəndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi məbləği:**

**Vergilər.** Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə tətbiq ediləcək vergilər barədə

məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

İstiqrazlar üzrə hüquqi şəxslərə ödəniləcək faizlər isə onlar tərəfindən vergitutma bazası hesablanarkən gəlir olaraq nəzərə alınaraq ümumi qaydada mənfəət vergisinə cəlb olunacaq.

**Xərclər:**

-əqdin məbləğinin 0.02 % həcmində "Bakı Fond Birjası" QSC-nin komissiyası;
-investisiya şirkətinin komisyon haqqı (investisiya şirkəti ilə istiqraz alıcısı arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunur);
- MDM tərəfindən "depo" hesabının açılması üçün 5 manat xidmət haqqı.
-kliring hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (emitentə məxsus hesabdan köçürmə həyata keçirildikdə bank-köçürmə xərci tutulmur).

**İstiqrazların emitenti barədə məlumat.**

**6. Emitentin auditorları barədə məlumat.**

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

**2020-2022-ci ildə:**

| Dövr | ADI | Ünvan |
|---|---|---|
| 2020-ci il | VXA AUDİT MMC | Gen. S. Mehmandarov 92, m. 135 |
| 2021-ci il | Sərbəst auditor- Yusifova Gülnar İsfəndiyar qızı | Yasamal r-nu., Ə.Ələkbərov küç., ev 79, m. 48 |
| 2022-ci il | Sərbəst auditor- Yusifova Gülnar İsfəndiyar qızı | Yasamal r-nu., Ə.Ələkbərov küç., ev 79, m. 48 |

**Auditorların hər hansı bir təşkilatda üzvlüyü yoxdur.**

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:**

Beynəlxalq təcrübəyə uyğun olaraq auditor şirkətinin müəyyən müddətdən sonra dəyişdirilməsi praktikasına əsasən auditor rotasiya edilmişdir. Eyni zamanda xərclərin optimallaşdırılması və bazar şərtlərinə uyğunlaşdırılması təmin edilmişdir .

**7. Seçilmiş maliyyə məlumatları**

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildikdə əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Azərbaycan manatı ilə | 31-Dekabr-2021 | 31- Dekabr -2022 | 31- Dekabr -2023 Audit edilməyib |
|---|---|---|---|
| Mənfəət/Zərər vergidən əvvəl | 4,172.36 | 2,863.75 | 227,030.00 |
| Mənfəət/Zərər vergidən sonra | 3,337.89 | 2,291.00 | 181,624.00 |
| Aktivlər | | | |
| Cəmi aktivlər | 1,497,244.83 | 1,460,749.96 | 2,169,830.00 |
| Cəmi öhdəliklər | 659,881.47 | 624,189.04 | 988,210.00 |
| Kapital | | | |
| Nizamnamə kapitalı | 810,000.00 | 810,000.00 | 1,000,000.00 |
| Kredit Portfeli | 965 115.72 | 968 387.90 | 1,391,990.00 |
| Pul vəsaiti | 106.59 | 609.23 | 8,620.00 |
| Cəmi Kapital | 837 363.36 | 836 560.92 | 1,181,620.00 |

| **Son 3 maliyyə ili** | **2021** | **2022** | **2023** Audit edilməyib |
|---|---|---|---|
| **Xalis əməliyyət gəliri** | 96,114.13 | 67,814.92 | 362,520.00 |
| **İnzibati və sair əməliyyat xərcləri** | 91,941.77 | 64,951.17 | 135,490.00 |
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 4,172.36 | 2,863.75 | 227,030,00 |
| **Mənfəət/Zərər (vergidən sonra)** | 3,337.89 | 2,202.90 | 181,624.00 |

**8. Emitent barədə məlumat:**

**8.1 Emitentin tam adı, təşkilati-hüquqi forması:** Bank olmayan kredit təşkilatı "Effektinvest" Məhdud Məsuliyyətli Cəmiyyəti

**8.2 Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 16 may 2013-cü il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 1402523041

**8.3 Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** Təşkilat 2013-cü iləd təsis edilmişdir. Təsis edildikdən bu günə kimi BOKT-un adı və təşkilati-hüquqi forması dəyişdirilməmişdir.

**8.4 Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı, əlaqə telefonlar:**

- Faktiki ünvanı: Bakı şəhəri, Yasamal rayonu, HəsənBəy Zərdabi küç., 589-cü məhəllə, ev 74, AZ1141
- Hüquqi ünvanı: Bakı şəhəri, Səbail rayonu, Azərbaycan pr-ti., ev 5, mənzil 17, AZ1005

- Emitentin elektron poçt ünvanı: info@effektinvest.az
- Emitentin internet səhifəsinin ünvanı: www.effektinvest.az
- Emitentin əlaqə telefonları: +99412-597-45-79

8.5 **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyalarının təsviri (məbləğ göstərilməklə):** Movcud deyil.

8.6 **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

8.7 **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emitent tərəfindən buraxılacaq və bu Emissiya Prospekti ilə müəyyən olunan qiymətli kağızlar Bakı Fond Birjasında tədavül ediləcəkdir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və hazırda yerli banklar, investisiya şirkətləri və Borsa İstanbul da daxil olmaqla 20 səhmdarı mövcuddur. Bakı Fond Birjası 21 iyul 2000-ci il tarixində fond birjası fəaliyyətini həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziyanı əldə etmişdir və hazırda Azərbaycanda qiymətli kağızlarla mütəşəkkil ticarətin yeganə təşkilatçısı qismində çıxış edir.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

### 9.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:

BOKT "EFfenktinvest" MMC müstəqil təsərrüfat subyekti olmaqla, öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Bank Olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanunu, qüvvədə olan digər qanunvericilik aktları və bu Nizamnamə əsasında həyata keçirməklə əsas məqsədi mənfəət götürməkdən ibarət olan ixtisaslaşdırılmış kredit təşkilatıdır. BOKT aşağıdakı fəaliyyət növlərini həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq)
- Lizinq
- Veksellerin uçotu
- Qarantiyanın verilməsi
- Sığorta agenti xidmətinin göstərilməsi
- Borc alanla, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

BOKT "Effektinvest" MMC-nin əsas məhsul kateqoriyası – mikro kreditlərdir. Son 3 il kredit portfelinin gəlirlilik və mənfəətlilik aşağıdakı kimi olmuşdur:

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| | | | Audit edilməyib |
| Kredit portfeli | 965,115.72 | 968,387.90 | 1,391,990.00 |
| Gəlirlər | 17,184.89 | 15,766.59 | 140,533.00 |
| Xalis mənfəət | 3,337.89 | 2,202.90 | 181,624.00 |

9.2. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Təqdim olunmayıb.

9.3. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri**: BOKT Azərbaycan Respublika ərazisində fəaliyyətə göstərən orta və xırda biznesin maliyyələşdirilməsi üçün Azərbaycan Respublika ərazisində fəaliyyətə göstərən maliyyə institutları ilə rəqabət aparır. 2022-ci ilin yekununa əsasən Respublika ərazisində BOKT sektoru üzrə kredit portfeli 440 400 000 manat olduğu halda, BOKT "Effektinvest" MMC-nin kredit portfeli 968 388 azn olmuşdur. BOKT-un kredit portfeli, BOKT sektorunun 0.22%-ni təşkil edir. 2020-ci ildən 2022-ci ilə qədər boktun portfeli pandemiya səbəbi və BOKT-un səhmlərinin satışı ilə bağlı azalmışdır. Lakin 2023-cü ilin mart ayında səhmdarların dəyişməsindən etibarən protfel artırılaraq 31.12.2023 tarixdə 1 391 990 manata çatdırılmışdır.

(məlumat Mərkəzi Bankın Maliyyə sektorunun statistikası ilə bağlı sayt məlumatlarından götürülmüşdür, https://cbar.az/page-188/credit-institutions).

9.4. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması.** BOKT "Effektinvest" MMC orta və mikro biznes bazarında rəqabət aparır. BOKT "Effektinvest" MMC-nin BOKT sektorunda payı aşağıdakı şəkildədir (https://cbar.az/page-188/credit-institutions):

| | **31.12.2020** | **31.12.2021** | **31.12.2022** | **31.12.2023** |
|---|---|---|---|---|
| BOKT sektorunun kredit portfeli | 263,400,000 | 333,300,000 | 440,400,000 | 758,500,000 |
| BOKT "Effektinvest" MMC-nin kredit portfeli | 2,043,678.01 | 965,115.72 | 968,387.90 | 1,391,990 |
| "Effektinvest"-in BOKT portfelində payı | 0.78% | 0.29% | 0.22% | 0.18% |

## 10. Digər təşkilatlarda iştirak

**10.1. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**
BOKT "Effektinvest" MMC-nin heç bir hüquqi şəxsdə iştirak payı mövcud deyil.

**10.2. Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Emitent heç bir qrupa daxil deyil, asılılıq mövcud deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 11. Tendensiyalar barədə məlumat

**11.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətinə mənfi təsir edəcək hər hansı bit hal baş verməmişdir.

**11.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

31.12.2023 tarixə BOKT-un kredit portfelinin gecikən hissəsi 516 010 azn təşkil edir ki, bunun da böyük hissəsi, yəni 339 188 azn-i 4 (dörd) müştəridən ibarətdir. Hal-hazırda hər 4 (dörd) müştərinin işləri məhkəmə prosesindədir. 4 (dörd) işin məhkəmə prosesi apelyasiya mərhələsindədir. Sözügedən müştərilərin məhkəmə prosesləri bitdikdən sonra BOKT-un kredit portfelinin gecikən hissəsi 339 188 azn azalacaq ki, bu da öz növbəsində həm problemli kredit portfelinin azalmasına və maliyyə vəziyyətinin daha da yaxşılaşmasına müsbət təsir göstərəcək.

31.12.2023 tarixə BOKT-un öhdəlikləri 988 210 azn təşkil edir ki, bu məbləğin 18 350 azn-i Mərkəzi bank tərəfindən devalivasidan əziyyət çəkmiş müştərilər üçün ayrılmış vəsaitdir 410 984 azn vəsait isə Aqrar Kredit və İnkişaf Agentliyindən alınmış borc öhdəliyidir. 487 000 azn borc müqaviləsi əsasında cəlb edilmiş vəsait, 71 876 azn isə hesablanıb ödənilməmiş faiz xərcləridir.

BOKT-un fəaliyyətində qeyri-müəyyən proseslər yoxdur. BOKT 2023-cü ilin sonunda Bərdə rayonunda yeni filial açmışdır.

## 12. Gəlir proqnozu - Mövcud deyil

## 13. Emitentin idarəetmə və nəzarət orqanları

**13.1. Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar ( adı, soyadı, atasının adı və funksiyaları).**

**Müşahidə şurası barədə məlumat:**

| Adı, Soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Köçərli Mehman Fəxrəddin oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək, Şuranın , rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Əkbərov Bəhruz Ziyaddin oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatı fəaliyyət ilə bağlı məsələləri müzakirə etmək və |

| | | |
|---|---|---|
| | | əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək. Direktordan və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Köçərli Əli Fəxrəddin oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatı fəaliyyət ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək. Direktordan və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

**Müşahidə Şurası Emitetin idarə olunmasına və işinə nəzarəti həyata keçirir.**
**Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakilar aiddir:**

1.Cəmiyyətin ümumi yığıncalar arasındakı dövrdə onun icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirir

2.Cəmiyyətin ümumi yığıncağının çağrılması təşəbbüsü və onun çağrılmasının təşkilati məsələlərinin həlli

**Baş Direktor**

Cavadov Murad Şirin oğlu – "EFfektinvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin Baş Direktorudur.

**Baş Direktorun səlahiyyətlərinə aşağıdakilar aiddir:**

1. Cəmiyyətin icra orqanı Baş Direktordan ibarətdir.
2. Baş Direktor Emitentin Nizamnaməsində və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada Ümumi Yığıncaq tərəfindən 4 (dörd) illik müddətə seçilir. Baş Direktor səlahiyyət müddəti başa çatdıqdan sonra həmin vəzifəyə yenidən seçilə və/və ya salahiyyət müddəti başa çatmazdan əvvəl istənilən vaxt səlahiyyətlərinə xitam verilə bilər.
3. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə Ümumi Yığıncağın və Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə daxil olan məsələlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələlərlə bağlı, Baş Direktorun qərarlar qəbul etmek səlahiyyəti vardır.
4. Bütün müqavilələr və bütün sənədlər Baş Direktor tərəfindən Cəmiyyət adından imzalanmalı və Emitentin Nizamnaməsi ilə tələb olunduğu halda, Ümumi Yığıncaq və ya Müşahidə Şurası tərəfindən təsdiq edilməlidir.

**İştirakçıların ümumi yığıncağı Emitetin ali idarəetmə orqanıdır.**

İştirakçıların ümumi yığıncağının səlahiyyətlərinə aşağıdakılar aiddir:(Cəmiyyətin nizamnaməsinə uyğun olaraq)

1. Cəmiyyətin nizamnaməsinin, yaxud ona olan dəyişikliklərin təsdiq edilməsi;

2. Cəmiyyətin nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək;

3. Cəmiyyətin idarə edilməsi üçün Müşahidə Şurası və Baş Direktoru vakansiyasını irəli sürmək, onlari seçmək, təyin etmək, vəzifədən azad etmək;

4. Cəmiyyətin illik hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;

5. Cəmiyyətin Müşahidə Şurasını yaratmaq, əsasnaməsini təsdiq etmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

6. Cəmiyyətin Baş Direktoru vəzifəsini (icra orqanı) yaratmaq, əsasnaməsini təsdiq etmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

7. Qanunvericiliyə uyğun olaraq Cəmiyyətin fəaliyyətinə dair ildə 1 dəfədən az olmayaraq illik hesabatlarla və mühasibat balansı ilə tanış olmaq:

8. Cəmiyyətin payçılarının ümumi yığıncağının çağrılmasını tələb etmək;

9. Ümumi yığıncağın gündəliyinə dəyişiklik edilməsi və gündəliyə yeni müzakirə mövzusunun salınmasını tələb etmək;

10. Cəmiyyətin daxili idarəetmə qayda və prosedurlarının təsdiq edilməsi;

11. Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və auditor tərəfindən yoxlanılmasını tələb etmək;

12. Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbi yerinə yetirildikdən sonra, hesablanmış lakin ödənilməmiş dividentlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq:

13. Bu nizamnaməyə və qanunvericiliyə uyğun olaraq digər hüquqlanı həyata keçirmək;

14. Cəmiyyətin ümumi yığıncaqlarında və digər idarəetmə orqanlarında iştirak etmək;

15. Cəmiyyətin illik hesabatlarını, mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək.

**Payçılar barədə məlumat**

| Adı | Vətəndaşlığı | Payları sayı |
|---|---|---|
| Köçərli Fərid Fəxrəddin oğlu | Azərbaycan Respublikası | 102 |
| Cavadov Şirin İlahəddin oğlu | Azərbaycan Respublikası | 95 |
| Niftiyev Elçin Zülfüqar oğlu | Azərbaycan Respublikası | 3 |

**13.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra

orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı təşkilatın Müşahidə Şurasına, o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 14. İdarə Heyətinin işgüzar praktikası

**14.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

- BOKT-un Mükafatlandırma komitəsi yoxdur.
- BOKT-un Audit Komitəsi barədə məlumat:

| Komitə | Üzvlər | Gördükləri işlərin icmalı |
|---|---|---|
| Audit Komitəsi | Şərifov Elçin Mərdan oğlu<br>Əfəndiyev Fuad Səffəd oğlu<br>Həsənzadə Adil Əli oğli | BOKT-un audit siyasətinin və strategiyasının müəyyən edilməsi;<br>İllik Audit Planının hazırlanması və onun fəaliyyətinə nazarətin həyata keçirilməsi;<br>Kənar audit şirkətlərinin cəlbi və onlarla işin qurulması. |

**14.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat: Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 15. Emitetin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**15.1. Emitetin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payın sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Payları sayı | Nizamnamə kapitalında % nisbəti |
|---|---|---|---|
| Köçərli Fərid Fəxrəddin oğlu | Azərbaycan Respublikası | 102 | 51% |

| | | | |
|---|---|---|---|
| Cavadov Şirin İlahəddin oğlu | Azərbaycan Respublikası | 95 | 47.5% |

**15.2. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirləri təsviri:** Mühüm iştirak payının sahibi Emitentə nəzarəti emitentin nizamnaməsinə və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirir. Cəmiyyətin ali idarəetmə orqanı onun İştirakçılarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər. BOKT-un fəaliyyəti lisenziyalı fəaliyyət olduğu üçün bir başa Mərkəzi Bankın tənzimlənmə obyektidir. BOKT hər il audit şirkəti tərəfindən audit edilir. BOKT payçılarının iqtisadi marağı əldə olunmuş mənfəətin divident kimi götürülməsi və ya BOKT-un inkişafına yönəltməklə onun potensialının və dəyərinin artırılmasıdır. İstiqrazlar üzrə öhdəliklər istənilən halda payçıların tələblərindən öncə ödənilməlidir. İstiqraz sahibləri BOKT-un təqdim edəcəyi altı aylıq və illik maliyyə hesabatları vasitəsilə BOKT-un məfəətinin artıb-azalmasına, divident ödənişlərinə və nizamnamə kapitalının artıb-azalmasına nəzarət etməklə müvafiq nəzarətin sui-istifadə edilmədiyinə əmin ola bilərlər.

**15.3. Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

**16.1. Emitentin başa çatmış son üç maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** (2023-cü il audit edilməyib)

**Balans**-azərbaycan manatı ilə

| | 31.12.2023 | 31.12.2022 | 31.12.2021 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Nəğd pul Bank hesabları | 8,620.00 | 609.23 | 106.59 |
| Kreditlərin cəmi | 1,391,990.00 | 968,387.90 | 965,115.72 |
| Hesablanmış alınacaq faizlər | | | |
| **Xalis kredirlət (Kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu")** | **1,391,990.00** | **968,387.90** | **965,115.72** |
| Əsas vəsaitlər | 469,060.00 | 325,632.83 | 314,290.10 |
| Debitor Borclar | 430.00 | | 5,246.01 |

| | | | |
|---|---|---|---|
| Hesablanmış faizlər | | | |
| Digər aktivlər | 299,730.00 | 166,120.00 | 212,486.41 |
| **Aktivlərin cəmi** | **2,169,830.00** | **1,460,749.96** | **1,497,244.83** |
| **PASSİVLƏR VƏ KAPİTAL** | | | |
| Alınmış kreditlər | | | 649,970.87 |
| Ödəniləcək faizlər (Sair kreditor borclar) | | | 8,860.00 |
| Digər öhdəliklər | 558,880.00 | 67,559.04 | 1,050.60 |
| Mərkəzi idarəetmə orqanlarının vəsaitləri | 18,350.00 | 36,690.00 | |
| Maliyyə sektorundan alınmış kreditlər | 410,980.00 | 519,940.00 | |
| **Öhdəliklərin cəmi** | **988,210.00** | **624,189.04** | **659,881.47** |
| KAPİTAL | | | |
| Nizamnamə kapitalı | 1,000,000.00 | 810,000.00 | 810,000.00 |
| **Bölüşdürülməmiş mənfəət** | 181,620.00 | **26,560.92** | **27,363.36** |
| Keçmiş illərin xalis mənfəəti/zərəri | | 23,697.17 | |
| Cari ilin xalis mənfəəti/zərəri | | 2,863.75 | 27,363.36 |
| Kapital ehtiyatları | | - | |
| **Kapitalın cəmi** | **1,181,620.00** | **836,560.92** | **837,363.36** |
| **Passivlərin cəmi** | **2,169,830.00** | **1,460,749.96** | **1,497,244.83** |

## MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

| | **31.12.2023** | **31.12.2022** | **31.12.2021** |
|---|---|---|---|
| Verilmiş kreditlər üzrə | 140,533.85 | 15,766.59 | 17,184.89 |
| Dövlət qiymətli kağızları üzrə | | | |
| Digər Faiz gəlirləri | | | |
| **Faiz gəlirləri cəmi:** | **140,533.85** | **15,766.59** | **17,184.89** |
| Verilmiş kreditlər üzrə faiz xərcləri | 45,093.29 | 94.51 | |
| Digər alınmış kreditlər üzrə faiz xərcləri | | | |
| Qiymətli kağızlar üzrə | | | |
| Digər faiz xərcləri | | | 6,364.33 |

| | | | |
|---|---|---|---|
| **Faiz xərcləri cəmi** | **45,093.29** | **94.51** | **6,364.33** |
| **Xalis faiz gəlirləri/zərəri** | **95,440.56** | **15,672.08** | **10,820.56** |
| Məzənnə fərqindən gəlirlər | | 28.97 | |
| Digər gəlirlər | 267,079.98 | 52,113.87 | 85,293.57 |
| **Qeyri-faiz gəlirlərinin cəmi** | **267,079.98** | **52,142.84** | **85,293.57** |
| **Cəmi gəlirlər** | **362,520.54** | **67,814.92** | **96,114.13** |
| Əmək haqqı və əlavələr | 32,084.07 | 21,976.83 | 35,392.86 |
| Mükafatlar | | | |
| Sosial təminat xərcləri | 8,454.10 | 4,213.70 | |
| **Əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi** | **40,538.17** | **26,190.53** | **35,392.86** |
| Digər inzibati və əməliyyat xərcləri | 63,455.61 | 32,430.64 | 54,317.95 |
| Digər xərclər | 31,496.18 | 6,330.00 | 2,230.96 |
| **Qeyri-faiz xərclərinin cəmi** | **135,489.96** | **64,951.17** | **91,941.77** |
| **Cəmi gəlirlər** | **227,030.58** | **2,863.75** | **4,172.36** |
| "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırımlar | | | |
| **Vergidən əvvəlki mənfəət** | **227,030.58** | **2,863.75** | **4,172.36** |
| Mənfəətdən ödənilən vergilər | 45,406.12 | | 834.47 |
| Pul şəklində qrantlar | | | |
| **Vergilər çıxıldıqdan sonra xalis bölüşdürülməmiş mənfəət/zərər** | **181,624.46** | **2,863.75** | **3,337.89** |

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI

| Azərbaycan Manatı ilə | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi kapital |
|---|---|---|---|---|
| **31.12.2021-ci il tarixinə kapitalın qalığı** | **810,000.00** | - | **27,362.84** | **837,362.84** |
| Kapital qoyuluşu | | | - | - |
| Hesablanmış vergilər | | | - | - |
| Keçmiş illərin maliyyə nəticəsi | | | (3,665.67) | **(3,665.67)** |
| Hesabat dövrünün maliyyə nəticəsi | | | 2,863.75 | **2,863.75** |
| **31.12.2022-ci il tarixinə kapitalın qalığı** | **810,000.00** | - | **26,560.92** | **836,560.92** |

| | | | | |
|---|---|---|---|---|
| Kapital qoyuluşu | 190,000.00 | | | **190,000.00** |
| Hesablanmış vergilər | | | | - |
| Keçmiş illərin maliyyə nəticəsi | | | | - |
| Hesabat dövrünün maliyyə nəticəsi | | | 181,624.46 | **181,624.46** |
| **31.12.2023-cü il tarixinə kapitalın qalığı** | **1,000,000.00** | **-** | **208,185.38** | **1,208,185.38** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI

| | **31.12.2023** | **31.12.2022** | **31.12.2021** |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | **25,896.11** | **(2,178.13)** | **32,489.78** |
| Cari ilin vergi çıxıldıqdan sonrakı mənfəəti | 181,624.46 | 2,863.75 | 3,337.89 |
| Köhnəlmə va amortizasiya xərcləri | 85,613.16 | 24,970.00 | 21,965.32 |
| Cari aktivlərin azalması\artması | (245,548.38) | 36499.50 | 7,186.57 |
| | (329,095.26) | | |
| **Öhdəliklərin artması\azalması** | **333,302.13** | **(66511.38)** | **(593388.72)** |
| Cari öhdəliklərin artması\azalması | 382,361.17 | | (1795083.91) |
| Digər öhdəliklərin artması\azalması | (49,059.04) | (66,511.38) | (4083.81) |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | - | | **1,169,120.41** |
| Əsas vəsaitlərin alınması | - | | |
| İnvestisiya fəliyyətinə yönəlmiş xalis pul vəsaitləri | - | | 1,169,120.41 |
| **Maliyyələşdirilmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | **(17,881.60)** | **2,680.77** | **36,658.59** |
| Nizamnamə kapitalının artımı | - | | |
| Qazanılan gəlirin artımı | - | | |
| Digər uzunmüddətli maliyyə öhdəliklərinin azalması\artması | (17,881.60) | 2,680.77 | 36,658.59 |
| **Maliyyə fəliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | - | | |
| Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma** | **8,014.51** | **502.64** | **(625878.50)** |

| | | | |
|---|---|---|---|
| İlin əvvəlinə pul vəsaitləri və onun ekvivalentləri | 609.23 | 106.59 | 106.59 |
| **İlin sonuna pul vəsaitləri və onun ekvivalentləri** | **8,623.74** | **609.23** | **(625,771.91)** |

16.2. **Emitentin Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır.**

16.3. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** BOKT "EFfektinvest" MMC-nin konsolidasiya olunmuş hesabatı hazırlanmır.

16.4. **Emitentin maliyyə vəziyyəti və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** BOKT "EFfektinvest" MMC-nin maliyyə vəziyyəti və gəlirliliyinə təsir edən son bir ildə hüquqi proseslər baş verməmişdir.

16.5. **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospektinin 16.1-ci bəndində ətraflı məlumat verilib.

16.6. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** BOKT "EFfektinvest" MMC-nin gəlir gətirən aktivləri və xalis mənfəəti 2023-cü ildə 2022-ci il ilə müqayisədə artım dinamikasındadır. BOKT-un kredit portfeli 2022-ci ilin sonuna nisbətdə 2023-cü ilin 12 ayı ərzində 69.57% artaraq 1 391 990 AZN-ə çatmışdır. Bu da BOKT-un dinamik böyümüsinin əlamətidir.

## 17. Emitent haqqında əlavə məlumatlar.

17.1. **Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin sayı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Nizamnamə kapitalının ümumi məbləği 1 000 000 (bir milyon) manat həcmindədir və hər birinin nominal dəyəri 5000 (beş min) manat olmaqla 200 (iki yüz) paydan ibarətdir. BOKT Məhdud Məsuliyyətli Cəmiyytə olduğu üçün Nizamnamə kapatalı paylardan ibarətdir.

17.2. **Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat**: Emitent Nizamnaməsinin son redaksiyası 08.08.2023-cü il AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

17.3. **Fəaliyyət və məqsədlərin təsviri:** BOKT "Effektinvest" MMC Mərkəzi bank tərəfindən verilən lisenziyada və Nizamnamədə qeyd edilən fəaliyyət aşağıdakı fəaliyyət növləri məşğul olur:

- Borc öhdəliklərinin alqı ilə -satqısı (faktorinq, forfeytinq)

- Lizinq
- Veksellerin uçotu
- Qarantiyanın verilməsi
- Sığorta agenti xidmətinin göstərilməsi
- Borc alanla, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**17.4. İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:**
13-cü banddər şərh verilmişdir.

**17.5. Emissya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəlikləri yerinə yetirmək qabiliyyatinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

**İstiqrazlar barədə tələb olunan məlumat.**

**18. Əsas məlumat.**

**18.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**"Bakı Fond Birjası" QSC**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.
İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

**"Milli Depozit Mərkəzi"**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən Mərkəzi depozitardır .

İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

**Anderrayter**

15.02.2018-ci il tarixində dövlət qeytiyyatına alınmış Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı lisenziya

əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkəti olan "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti. Emissiyada iştirak edən şəxslər arasında maraqlar toqquşması mövcud deyil. Emissiyada emitentə adiyyatı olan və digər əlaqəli şəxslər iştirak etmir.

18.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait BOKT-un kredit protfelinin dinamik inkişafına, müvafiq olaraq mənfəətin artırılmasına və yeni filialın açılmasına hədəflənir.

18.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Əldə edilən vəsaitlər kifayət etmədikdə əlavə mənbə kimi səhmdarlarda borc müqaviləsi əsasında 150 000 (Bir yüz əlli min), yerli banklardan isə 300 000 (Üç yüz min) kredit formasında vəsait cəlb edilməsi nəzərdə tutulur .

18.3.1. **Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait kreditləşmə üçün istifadə olunacaq.

19. **İstiqrazlar barədə məlumat.**

19.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

19.2. **İstiqrazların növü:** faizli,təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;

19.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (Yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

| | **Yeni buraxılış:** | **Mövcud buraxılış:** |
|---|---|---|
| **Say:** | 500 (beş yüz) ədəd | Mövcud deyildir |
| **Nominal dəyəri:** | 1000 (bir min) azn | Mövcud deyildir |

**Təklif edilən yeni buraxılan istiqrazların ümumi məbləği:** 500 000 (beş yüz min) AZN

19.4. **İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN);

19.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Milli Depozit Mərkəzinin ünvanı: Azərbaycan Respublikası, Bakı şəh, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad tauer.

19.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

19.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**

**İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**

- İstiqrazların tədavül müddəti bitdikdə İstiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 14% (on dörd) həcmində faiz almaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.
- Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə emitentin müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

İstiqrazlar üzrə məhdudiyyət müəyyən edilməmişdir.

19.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** illik 14 (on dörd) faiz.

19.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül müddətində (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 5 (beş) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər ay nağdsız qaydada ödənilir. Istiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

19.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

19.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** faiz dərəcəsi müəyyən olunub.

**19.12. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcək.

**19.13. Ödənişlər üzrə hesablaşma agentinin adı:** Bank "BTB" ASC.

**19.14. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Yeni emissiya edilən istiqrazlar təmin edilməmişdır.

**19.15. İstiqrazların geri satın alınmasının şərtləri:** Geri satın alınma nəzərdə tutulmayıb.

**19.16. Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:
TF = (N*D*G/360)/100
Burada
TF – Bir istiqraz üzrə toplanmış faizlər;
N – Bir istiqrazın nominal dəyəri (1000 (bir min) azn)
D – İstiqrazların illik faiz dərəcəsi ( 14 (on dörd) )
G – İstiqrazlar üzrə faizlərin ödəniş müddəti (30 gün)
Göstərilmiş düstura əsasən hər bir istiqraz üzrə hər ay ödəniləcək faizlərin məbləği 11.66 (on bir tam onda altmış altı) manat təşkil edir.

**19.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Movcud deyil.

**19.18. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** Bokt "Effektinvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin İştirakçılarının Növbədənkənar Ümumi Yığıncağının 04/10/2023 EFİ saylı 09 Oktyabr 2023-cü il tarixli protokolu.

**19.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsinə heç bir məhdudiyyət qoyulmayıb.

**19.20. İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** İstiqrazlar üzrə faiz (kupon) ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Azərbaycan Respublikasının Vergi Məcəllənin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və

faiz (kupon) gəlirləri gəlir vergisindən azaddır. İstiqrazların tədavüldə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

## 20. Təklifin şərtləri

20.1. **Yerləşdirmənin başlanma tarixi:** Yerləşdirmə emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra və istiqrazlar "Bakı Fond Birjası" QSC-də ticarətə buraxıldıqdan sonra başlanılacaq. İstiqrazların yerləşdirməsinə başlanması tarixinə ən azı 2 iş günü qalmış qiymətli kağızların yerləşdirilməsinin baş tutacağı tarix və hərracın keçirilməsi şərtləri "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin (www.assistfinance.az) saytında investorlara açıqlanacaqdır.

**Yerləşdirmənin başa çatma tarixi:** Yerləşdirmə başlandığı tarixdən etibarən 1 (bir) iş günü ərzində başa çatdırılacaq.

20.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən on iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

20.3. **Təklifin dayandırılması və ya təxirə salınması halları:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və emitentin internet səhifəsində açıqlanır.

20.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı keçirilmədən həyata keçiriləcək.

20.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:**

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "ABB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.Effektinvest.az) açıqlanır.

**20.6. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini bu emissiya prospektində müəyyən edilmiş BTB Bank ASC-də açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

**20.7. Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** emissiya ediləcək istiqrazlar həm fiziki, həm hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**20.8. İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma tarixi istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra və istiqrazlar "Bakı Fond Birjası" QSC-də ticarətə buraxıldıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin (www.assistfinance.az) saytında investorlara açıqlanacaqdır.

**20.9. İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** Bir istiqrazın təklif qiyməti 1000 (bir min) AZN təşkil edir.

**20.10. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

**Vergilər:**

İstiqrazlar üzrə faiz (kupon) ödənişi zamanı qanunvericilikdə müəyyən edilmiş qaydada ödəmə mənbəyindən vergi tutulur. Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən fiziki şəxslər 5 (beş) il müddətində kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend,

diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azaddır.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

**İstiqraz alıcısının ödəməli olduğu xərclər aşağıdakı kimidir:**

-əqdin məbləğinin 0.02 % həcmində "Bakı Fond Birjası" QSC-nin komissiyası;

-investisiya şirkətinin komisyon haqqı (investisiya şirkəti ilə istiqraz alıcısı arasında bağlanmış müqaviləyə əsasən müəyyən olunur);

- MDM tərəfindən "depo" hesabının açılması üçün 5 manat

- klirinq hesabına pul köçürülməsi zamanı bank-köçürmə xərci (emitentə məxsus hesabdan köçürmə həyata keçirildikdə bank-köçürmə xərci tutulmur).

**20.11. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı), xidmət haqqı:**

İstiqrazlar "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş İŞ-03 saylı, 12 oktyabr 2018-ci il tarixli lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Ünvan: : Azərbaycan Respublikası, Bakı şəhəri, Dəmirçi Plaza 22-ci mərtəbə

İstiqrazların yerləşdirilməsi müqabilində "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə ödəniləcək xidmət haqqı, İnvestisiya Şirkəti ilə Emitent arasında bağlanacaq anderrayter müqaviləsinə əsasən müəyyən olunur.

**20.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** Bokt "Effektinvest" MMC ilə "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti arasında anderraytinq müqaviləsi istiqrazların buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 21. Ticarətə buraxılma və onun tənzimlənməsi

**21.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. Bununla bağlı müraciət Emissiya prospekti və istiqrazların buraxılışı qanunvericiliyə müvafiq olaraq dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

**21.2. Market meyker(lər) barədə məlumat:** Mövcud deyil.

## 22. Kredit reytinqləri

**22.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentləmə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qitmətli kağızları üçün təyin olunmuş kredit reytinqləri.** Mövcud deyil